

**Sabir Rüstəmxanlı**
**Xalq şairi**

# Cığatel xanım gerçəkdən sözü haqdan gələn bir şairdir

**Müasir poeziyamızda Cığatel xanımın heç kimə bənzəməyən, möhkəm, etibarlı bir yeri var. O bu mövqeyi həm sözü ilə - sözünün ifadə tərzi, çatdırılması ilə, həm də özünün bir insan kimi, xanım kimi duruşuyla qazanıb. Cığateli uzun müddətdir tanıyıram. Dostuq.**

Bir yerdə bir çox məclislərdə olmuşuq və olduğu bütün məclislərə, tədbirlərə ayrıca bir rəng qatıb, ruh gətirib. Şübhəsiz o, Qazax-Borçalı şer, poeziya məktəbinə bağlıdır. Bununla yanaşı o həm də müasirlik ruhundan doğulmuş, yəni müasir həyatın qayğılarından, sevincindən, kədərindən, müasir həyatın ziddiyyətlərindən doğulmuş bir şairdir. Onun əsərləri bu günkü həyatın ruhundan gəlir. Həm də elə bu cəhətdən aşıq məktəbinə bağlıdır və özü də deyir ki, "mənim yazım haqdan gəlir". Cığatel xanım gerçəkdən haqdan ilham alan və sözü haqdan gələn bir şairdir. Ədəbiyyatı, şeri hərə bir cür düşünə bilər. Biri söz bəzəməklə, qafiyə quraşdırmaqla məşğul olur. Amma əsl ədəbiyyatda söz doğulmalıdır, haqdan gəlməlidir. Belə doğulan poeziyanın bərbəzəyi yox, ruha necə təsir etməyi önəmlidir. Əbəttə poeziya həm də sözün bəzəyidir, obrazlı sözdür, metaforadır. Amma bütün bunlar təbbi bir şəkildə vəhdətdə olmalıdır. Cığatelin şerləri haqdan, həyatdan gəldiyinə görə, insanların ürəyindən xəbər verdiyinə görə, bəzən birbaşa konkret hadisələrlə bağlı olduğuna görə oxuculara doğmadır, oxucular onu həvəslə dinləyir. Adət ənənələr, gündəlik qayğılar, xalqı narahat edən problemlər, məişətimizlə bağlı olan məsələlər onu narahat edən əsas mövzular olduğuna görə bu şerlər ürəklərdə əks səda verir. Cığatelin şerləri saz havasının davamı kimi, musiqi kimi doğulur. Onun şerlərini sazın müşayət eləməsi heç vacib də deyil, bu şerlər sanki elə saz havası üzərində dinlənilir. İnsan öz duyğularının səmimi yazanda və bunu poetik ucalıqda ifadə edəndə, sevincini də kədərini də məhz bu yüksək poetik ovqatla qələmə alanda şübhəsiz başqaları da bundan təsirlənir. Cığatelin nəvəsinə yazdığı şer son dərəcə təsirlidir:



***Əlacsızdır dərdi-sərim***
***Aydan Gündən yox xəbərim***
***Uzun olur gecələrim***
***Gecə könlüm dan istəyir***

***Cığateləm döndüm neyə***
***Deyin sevinsin fələyə***
***Dərman neylər mən xəstəyə***
***Könlüm "Süleyman" istəyir***

Yaxud onun başqa "Allah əlimdən tutub" dediyi başqa bir şeri diqqət çəkir:

***Elə yapışmısan ki, yıxmağa çalışırsan,***
***Elə bil ayağımdan əjdaha, timsah tutub.***
***Boğularsan sularda, yerin çirkab, bataqlıq,***
***Bəsirətin bağlıdır, gözünü günah tutub!***

***Məkanın zülmət gecə, unutmusan sabahı,***
***Sən məni sevməyirsən, şeytanın Bismillahı,***
***Üzünün nuru gedib, ürəyinin Allahı,***
***Küdurət içindəsən, sanki səni ah tutub..***

***Baxışların zəhirmar, gözün ilan yuvası,***
***Qarışqasan, başında fil olmaq iddiası,***
***Halına acıyıram, yazıxsan, intəhası,***
***Bir az da qınamıram, hülqumun tamah tutub..***

***Cığatelin varlığı sənə olub dərd, qada,***
***Gör nə günə düşübsən, özünə bax aynada ,***
***Mən qalxdıqca göylərə, yellənirsən havada,***
***Burax ayaqlarımı, əlimdən Allah tutub !...***

Cığatel doğurdan da əli Allahın əlində olan söz ustadlarından biridir. Haqq yolunda olan, Allah sevgisi ilə yaşayan, hər zaman düzlüyü və ədaləti axtaran bir şair çevrəsində olan insanların ruhunu duyduğuna, qəlbinin səsindən xəbər verdiyinə görə hər kəsin sevimlisinə çevrilir.

Cığatel məhz bu sevgini qazanan bir şairdir. Onun şerləri aşıq şeri, klassik qoşma, garaylı janrında olsa da Cığatelin ruhu, sözü, mövzuları müasirdir. O həm də gözəl insan, gözəl dostdur, dost məclislərinin yaraşığıdır. Cığatel sinədəftərdir, bütün şerlərini əzbər bilir və dost məclislərində bəzən bədahətən şerləni səsləndirməsi ayrıca bir uh oxşayır. Aşıq sənətində, poeziyada adətən kişilər söz məclisində şer deyir. Cığatel bu baxımdan istisnadır və qadın cəsarəti ilə bu zirvəni də fəth edib. Şerlərinin birində deyir ki, "Yaşasam yaddaşlarda qalım Cığatel kimi" . Şübhəsiz o dostların, xalqın və ədəbiyyatın yaddaşında hər zaman Cığatel olaraq yaşayacaq.